***Q Ə R A R***

<u>İş № 1-1(103)-39</u>

Bakı Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə kollegiyası;
Hakimlər Sahibxan Arzuman oğlu Mirzəyevin sədrliyilə,
Faiq Adil oğlu Qasımov və Camal Cumar oğlu Ramazanovdan ibarət tərkibdə,
Məhkəmə iclas katibi-Quliyev Sahib Şahbala oğlu,
Dövlət ittihamçısı - Azərbaycan Respublikası Baş Prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokuroru, ədliyyə müşaviri Həsənov Binnət Rafiq oğlu iştirakları ilə

«05 » dekabr 2008-ci il tarixdə Bakı şəhərində

02 iyul 1988-ci ildə Sabirabad rayonunda anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, orta təhsilli, subay, əvvəllər məhkum olunmamış, Sabirabad rayonu, V.Əhmədov küçəsi, ev 23b ünvanında qeydiyyatda olan, «N» saylı hərbi hissənin əsgəri, barəsində «komandanlığın müşahidəsi altına vermə» qətimkan tədbiri seçilmiş Qurban Əmrah oğlu Əliyev haqqındakı -

Bakı Hərbi Məhkəməsinin 20 oktyabr 2008-ci il tarixli hökmündən dövlət ittihamçısı E.Əliyev tərəfindən verilmiş apellyasiya protestinə Bakı Apellyasiya Məhkəməsinin binasında açıq məhkəmə iclasında baxaraq-

# M Ü Ə Y Y Ə N E T D İ:

Bakı Hərbi Məhkəməsinin 20 fevral 2008-ci il tarixli hökmü ilə(sədrlik edən M.Q.Əliyev) Əliyev Qurban Əmrah oğlu Azərbaycan Respublikası CM-nin 332..2.5-ci maddəsi ilə təqsirli bilinib, 03(üç) il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, barəsində CM-nin 70-ci maddəsi tətbiq edilərək təyin edilmiş cəza üzərində 02(iki) il sınaq müddəti müəyyən etməklə, cəzası şərti olaraq tətbiq edlilmişdir.

Məhkəmənin hökmünə əsasən, Əliyev Qurban Əmrah oğlu tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozub həmin hərbi hissənin sabiq əsgəri Ağayev Sahil Bəhlul oğluna qarşı zor tətbiq edərək ona az ağır zərər vurmuşdur.

Belə ki, o, 12 iyun 2008-ci il tarixdə saat 13 radələrində «N» saylı hərbi hissənin əsgər yeməkxanasında yeməkxana növbəsi zamanı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin 38-ci maddəsinin «hərbi qulluqçular bir-birinə münasibətdə həmişə nəzakətli və təmkinli olmalı, vəzifəsindən asılı olmayaraq, hərbi qulluqçular xidmət məsələləri üzrə bir-birinə «Siz» deyə müraciət etməli» tələbini kobud surətdə pozub əsgər Ağayev Sahil Bəhlul oğlu ilə zarafat edərkən ona qarşı nizamnamədən kənar zorakı hərəkət edərək qəflətən başını sağ qolunun altına salaraq boynunu sıxıb buraxdığından sonuncu huşunu itirərək yerə yıxılmış, nəticədə çənəaltı nahiyyəsinin yarası və dişlərin hissəvi sınması ilə müşayiət olunan alt çənə sümüyünün sınıqları kimi sağlamlığının uzun müddətə pozulmasına səbəb olan az ağır dərəcəli bədən xəsarəti almışdır.

Hökmdən dövlət ittihamçı E.Əliyev apellyasiya şikayəti verib, Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinin tətbiqinə dair müddəaların xaric edilmklə hökmün dyişdirilməsini və Q.Əliyevə təqsirli bilindiyi maddənin sanksiyası həddində cəza təyin edilməsini xahiş etmişdir.

Dövlət ittihamçısı apellyasiya prtestini onunla əsaslandırmışdır ki, birinci instansiya məhkəməsində məhkum Q.Əliyevə Azərbaycan Respublikası CM-nin 332.2.5-ci maddəsi ilə dörd il müddətə azadlıqdan məhrum etmə cəzasının təyin edilməsini təklif etmiş, məhkəmə isə məhkum Q.Əliyevin əməlini etiraf etməsini, ondan peşimançılıq çəkməsini, zərərçəkmiş şəxslə barışmasını və zərərçəkmiş şəxsin ondan şikayətinin olmamasını və hərbi xidmət üzrə qanunla müəyyən müddəti başa vurmasını məsuliyyəti yüngülləşdirən hal kimi nəzərə alaraq, barəsində əsassız olaraq Azərbaycan Respublikası CM-nin 70-ci maddəsini tətbiq etmişdir. Dövlət ittihamçısı apellyasiya protestində göstərmişdir ki, göstərilən yüngülləşdirici hallar məhkumun barəsində CM-nin 70-ci maddəsinin tətbiq edilməsinə deyil, yalnız ona təqsirli bilindiyi maddənin sanksiyasının aşağı həddində cəza təyin edilməsinə əsas ola bilər. Ona görə də hökmün dəyişdirilməsini və Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinin tətbiqinə dair müddəaların hökmdən xaric edilməsi barədə qərar qəbul etməsini məhkəmə kollegiyasından xahiş etmişdiir.

Dövlət ittihamçısı apellyasiya protestində məhkum Q.Əliyevin təqsirlilik məsələsi və əməlinin hüquqi tövsifi mübahisə etməmişdir.

Bakı Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə kollegiyası cinayət işinin materiallarını araşdırıb, apellyasiya protestinin dəlillərini müzakirə edərək, apellyasiya protestinin təmin olunmaması barədə məhkum fikrini, həmçinin apellyasiya protestinin təmin edilməsi barədə dövlət itithamçısının çıxışını dinləyib hesab edir ki, aşağıdakı əsaslara görə apellyasiya protesti qismən təmin edilərək, Bakı Hərbi Məhkəməsinin 20 oktyabr 2008-ci il tarixli hökmü dəyişdirilməlidir.

Məhkum Q.Ə.Əliyevin törətdiyi cinayət əməli onun özünün həm ibtidai istintaq, həm də məhkəmə istintaqı zamanı verdiyi etirafedici ifadələri ilə yanaşı,

zərərçəkmiş S.Ağayevin və şahidlər S.Qasımov, Ş.Səfərov və C.Məmmədovun ifadələri, ekspert rəyi, habelə cinayət işinin digər materialları ilə tam təsdiq edilir

Məhkəmə kollegiyası hesab edir ki, məhkum Q.Ə.Əliyevin törətdiyi cinayət əməli birinci instansiya məhkəməsi tərəfindən düzgün olaraq Azərbaycan Respublikası CM-nin 332.2.5-ci maddəsi ilə tövsif edilmişdir.

Hökmdən görünür ki, birinci instansiya məhkəməsi məhkum Q.Əliyevin barəsində cəza təyin edərkən, cəzanın təyin edilməsinin ümumi əsaslarını özündə əks etdirən Azərbaycan Respublikası CM-nin 58.3-cü maddəsinin tələbləri müzakirə etmiş və cəza təyin edərkən törədilmiş cinayətin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, təqsirkarın şəxsiyyətini, o cümlədən onun əvvəllər məhkum edilməməsini, ilk dəfə olaraq az ağır cinayət törətməsini, törətdiyi cinayəti etiraf edib ondan səmimi peşmançılığını bildirməsini, zərər çəkmiş şəxsin ona qarşı heç bir şikayəti və tələbinin olmamasını və qanunla müəyyən edilmiş həqiqi hərbi xidmət müddətini başa vurmasını onun cəzasını yüngülləşdirən hal kimi və onun əməlinə cəzasını ağırlaşdıran halın olmamasını, habelə təyin olunmuş cəzanın onun islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsirini nəzərə alaraq, onun cəmiyyətdən təcrid edilmədən islah olunması qənaətinə gəlmiş və barəsində Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinin tətbiq edilərək üzərində sınaq müddəti müəyyən edilməklə cəzasının şərti olaraq tətbiq edilməsini mümkün hesab etmişdir.

Azərbaycan Respublikası CM-nın 41.2-ci maddəsinin tələblərinə əsasən, cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədilə tətbiq edilir.

Azərbaycan Respublikası CM-nin 59.2-ci maddəsinin müddəalarından göründüyü kimi, cəza təyin edilərkən bu Məcəllənin 59.1.1-59.1.10-cu maddələrində göstərilməmiş başqa hallar da cəzanı yüngülləşdirən hal qismində nəzərə alına bilər.

Azərbaycan Respublikası CM-nin 70.1-ci maddəsinin tələblərindən görünür ki, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama, azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası təyin edən məhkəmə, məhkumun cəza çəkmədən islah olunmasını mümkün sayırsa, həmin cəzanın şərti olaraq tətbiq edilməsi haqqında qərar çıxara bilər.

Iş materiallarından görünür ki, məhkum Q.Əliyevin törətdiyi cinayət əməli onun zərərçəkmiş şəxslə zarafatının gedişində yaranmış, əməlin ilkin mərhələsi qəsdi əhatə etsədə, zərərçəkmiş şəxsin xəsarət alması hissəsində ehtiyatsızlığa yol verilmiş, onun boyununu sıxmaqla huşunu itirib yıxıla biləcəyi ehtimalını əvvəlcədən görməli olduğu halda, bu nəticəni görməmişdir.

Cinayət işinin materiallarından görünür ki, məhkum Q.Əliyev hadisələrin təsadüfi axarı zəmnində ilk dəfə az ağır cinayət əməli törətmiş, əməlini etiraf edərək ondan səmimi peşmançılığını bildirmiş, zərərçəkmiş şəxslə barışıq əldə etmiş, xidmət yerindən müsbət xarakterizə edilir, ordu sıralarında qanunla

müəyyən edilmiş xidmət müddətini başa vurması ilə bağlı 21 oktyabr 2008-ci il tarixli 242-saylı əmrlə ordu sıralarından təxsir edilmişdir.

Ona görə də məhkəmə kollegiyası məhkum Q.Əliyevin əməlində olan cəzanı yüngülləşdirən halların onun barəsində Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinin tətbiq edilməsinə kifayət etməməsi barədə apellyasiya protestinin dəlilləri ilə razılaşmır və hesab edir ki, birinci instansiya məhkəməsi Q.Əliyevə azadlıqdan məhrum etmə ilə bağlı cəza təyin etmiş, lakin onun cəmiyyətdən təcrid olunmadan islah olunmasını mümkün hesab edərək, barəsində Azərbaycan Respublikası CM-nin 70-ci maddəsini tətbiq etmişdir.

Məhkəmə kollegiyası hesab edir ki, yuxarıda göstərilən halları nəzərə alan birinci instansiya məhkəməsi düzgün olaraq, məhkum M.Əliyevin cəmiyyətdən təcrid olunmadan islah olunması qənaətinə gəlmiş, lakin onun üzərində sınaq müddətini aşağı həddə təyin etməklə, məhkum tərəfindən gələcəkdə belə hallara yol verməsinin qarşısının alınmasını məqsədilə onda məsuliyyət hissinin artırılmasını təmin etməmişdir.

Ona görə də məhkəmə kollegiyası hesab edir ki, Bakı Hərbi Məhkəməsinin məhkum Q.Əliyev haqqındakı 20 oktyabr 2008-ci il tarixli hökmü dəyişdirilməli və ona təyin edilmiş sınaq müddəti artırılmalı və bununla da apellyasiya protesti qismən təmin olunmalıdır.

Bakı Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə kollegiyası şərh olunanları və Azərbaycan Respublikası CPM-nin 397.1, 397.2, 398.1.4, 399.1.5 və 404-cü maddələrini rəhbər tutaraq-

## Q Ə R A R A   A L D I:

Apellyasiya protesti qismən təmin edilsin.

Bakı Hərbi Məhkəməsinin Əliyev Qurban Əmrah oğlu haqqındakı 20 oktyabr 2008-ci il tarixli hökmü dəyişdirilsin.

Həmin hökmlə məhkum Q.Ə.Əliyevə təyin edilmiş 02(iki) il sınaq müddəti artırılaraq 03(üç) il müəyyən olunsun.

Hökmün qalan hissəsi dəyişdirilmədən saxlanılsın.

Qərar elan olunduğu andan qanuni qüvvəyə minir.

Qərardan Azərbaycan Respublikası CPM-nin 410-cu maddəsinin tələblərinə müvafiq qaydada Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya qaydasında şikayət və ya protest verilə bilər.